https://doi.org/10.36719/2706-6185/41/51-57

**Günəş Məmmədova**
Azərbaycan Milli Elmlər Akademiyası
dissertant
gunes.ehmedova.89@mail.ru

# Günter Qrassın həyat və yaradıcılığı

**Xülasə**

Məqalə XIX əsrdə yaşamış Nobel mükafatı laureatı Günter Qrassın həyat və yaradıcılığını ümumi şəkildə əks etdirir. Məqalə yazılarkən müxtəlif xarici mənbələrə istinad edilmiş, yazıçının müxtəlif dillərə tərcümə olunmuş əsərlərinin əsas mövzu və ideyası haqqında qısa şəkildə məlumatlar verilmişdir.

Günter Qrassın keşməkeşli həyat araşdırılarkən müasirlərinin onunla bağlı xatirələrinə, həmçinin həmin dövrdə baş vermiş siyasi hadisələrin onun yaradıcılığına nə dərəcədə təsir etdiyi əsaslandırılmışdır

Günter Qrass Almaniya tarixində təkcə yazıçı kimi xatırlanmır. Onun cəmiyyətdə qazandığı ictmai siyasi mövqeyi təhlil etmək üçün həmin dövrdə baş verən siyasi hadisələrin təhlili, Almaniyanın müharibə zamanı yaşadığı ziddiyətli hadisələrin onun yaradıcılığına təsiri müxtəlif aspektlərdən araşdırılır.

Qrassın əsərlərinin bütün dünyada birmənalı qarşılanmaması onun digər xarici ölkələrdə baş vermiş hadisələrə fərqli prizmalardan yanaşması ilə bağlıdır. Məqalədə İsrailin, ADR-in, həmçinin Şərqi və Qərbi Almaniyanın Günter Qrassa qarşı münasibəti obyektiv şəkildə əks olunmuş və səbəbləri göstərilmişdir.

Məqalədə həmçinin Qrassın nəyə görə bütün dünyada bu qədər sevilməsi, onun yaradıcılığının öz ölkəsinin hüdudlarını aşıb dünya şöhrəti qazanmasının səbəbləri araşdırılmışdır.

Məqalə giriş, əsas hissə və nəticədən ibarətdir. Giriş hissədə yazıçının doğulduğu ölkə, həmin dövrdə baş verən hadisələr, əsas hissədə yazıçının əsərlərinin onun ictimai-siyasi mövqeyini nə dərəcədə əks etdirdiyi məsələlər, nəticə hissədə isə Qrassın beynəlxalq səviyyədə qiymətləndirilməsi və aldığı mükafatlar, onun vəfatı ilə bağlı faktlar öz əksini tapmışdır.

***Açar sözlər:*** *Günter Qrass, Almaniya, dünya müharibəsi, tarix, uğur*

**Gunash Mammadova**
Azerbaijan National Academy of Sciences
Dissertation student
gunes.ehmedova.89@mail.ru

# The Life and Work of Gunter Grass

**Abstract**

The article generally reflects the life and work of Nobel laureate Gunter Grass, who lived in the 19th century. When writing the article various foreign sources were referred to, and brief information was given about the main theme and idea of the writers works translated into different languages.

While investigating the turbulent life of Gunter Grass, it is justified to what extent the memories of his contemporaries related to him, as well as the political events that took place at that time influenced his creativity.

Gunter Grass is remembered in German history not only as a writer. In order to analyze the public political position he gained in the society, the analysis of the political events that took place in that period, the impact of the conflicting events experienced by Germany during the war on his creativity are examined from various aspects.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

The fact that Grasses works are not universally accepted is due to his approach to the events that took place in other foreign countries from different perspectives,

In the article, the attitude of Israel, the ADR, as well as East and West Germany towards Gunter Grass is objectively reflected and the reasons are indicated.

The article also examines why Grass so loved all over the world, the reasons why his creativity went beyond the borders of his country and gained world fame.

The article consists of introduction, main and conclusion part. In the introductory part, the country where the writer was born, the events that took place during that period, in the main part the issues of how far the writers works reflect his social and political position and in the final part, the evaluation of Grass at the international level and the awards he received, as well as the facts about his death

***Keywords:*** *Gunter Grass, Germany, the world war, history, successs*

## Giriş

Alman ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri, Nobel mükafatına layiq görülmüş yazıçı, heykəltəraş, rəssam Günter Qrassın həyat və yaradıcılığı daim tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Yazıçının əsərləri müxtəlif dillərə tərcümə olunub çap olunmuş və böyük oxucu kütləsi qazanmışdır. Onun əsərlərinin dünya şöhrəti qazanmasının əsas səbəbi yazıçının yaradıcılığında üstünlük təşkil edən insanın daxili hisslərinin dərin şəkildə əks etdirilməsidir. Qrassın dünya ədəbiyyatına gətirdiyi müxtəlif mövzular digər yazıçılar üçün də ilham mənbəyi olmuşdur (Günter, 2002).

**Tədqiqat**

Günter Qrass 1927-ci ildə oktyabrın 16-da Azad Dansiqdə anadan olmuşdur. Valideynləri Langfuhrun Qdansk ətrafında bir ərzaq mağazasına sahib idi. Qrass ibtidai və orta məktəbi Qdanskdakı Conradinum məktəbində oxumuşdur. O, həmişə uşaqlığının sosial mühitini öz yaradıcılığının mənbəyi kimi görürdü. Qdanskdakı bir çox ailələr kimi onun da ailə tərkibi fərqli idi. Atası alman əsilli, anası isə kaşub əsilli idi. Dansiq bölgəsindəki alman-polşa etnik qarışığında kaşublar öz dili və mədəniyyəti olan qədim slavyan kənd tayfası idi. Anasının valideynləri Qdanskın cənub-qərbindəki Karthaus ətrafındakı ərazidən gəliblər və sonra almanca danışmağa başlayıblar (Günter, 2010).

Qrass Kaşub dilini heç vaxt öyrənməsə də, bir çox əsərlərində bu xalqın mədəniyyətindən və polyak dilindən istifadə edir. Onun Visla çayının ağzındakı itirilmiş vətəninə və əfsanələrinə ədəbi müraciəti onun hekayələrinə bir növ Şərq ekzotizmi verir.

Qrass katolik inancında böyüdü. Atası Willy Qrass (1899-1979) lüteran, anası Helene (1898-1954) katolik idi. Danzig-Langfuhrdakı şəhərətrafı mühit, 1930-cu illərdə insanların anti-faşistləşməsi və gəncliyin sıxıcı həyat şəraiti sonralar Qrass üçün mənəvi gücə çevrildi. Özündən üç yaş kiçik olan bacısı Uoltraud ilə o, valideynlərinin ikiotaqlı mənzilində böyüyüb boya-başa çatdı.

Gəncliyinin bir çox avtobioqrafik təfərrüatları, onun əsərlərində, xüsusilə Danzig trilogiyasında öz əksini tapmışdır. Hitler hakimiyyətə gələndə onun beş, Üçüncü Reyx məğlub olanda isə onun onun on yeddi yaşı var idi. Danzig 1920-ci ildən sonra Millətlər Liqası tərəfindən Azad Şəhər elan edilsə də, 1939-cu ildə Alman Reyxinə zorla birləşdirildi (Günter, 2010).

O hələ uşaq ikən rəssam olmaq istəyirdi. Anasının kitablar xəzinəsi, musiqi və teatra olan həvəsi onu daha da ruhlandırırdı. Lakin II Dünya müharibəsi bütün gücü ilə onun həyat istiqamətini dəyişdirdi. Eyni zamanda bu müharibə onun yaradıcılığının əsasını təşkil edən bir təcrübə oldu. Hələ 15 yaşında olarkən, o, Kriegs Marinenin sualtı dəstəsində könüllü olaraq ailəsindən çox uzaqlarda xidmət etməyə başladı. 17 yaşında Waffen SS nin Panzer diviziyasına çağırıldı. Müharibənin sonunda Qrass əsir düşəndə amerikalılara özünü Waffen SS-nin üzvü kimi təqdim etdi (Günter, 2011).

Müharibədən sonra Qrass əvvəlcə təsərrüfat işçisi və Hildesheim yaxınlığındakı kalium mədənində fəhlə olaraq çörək pulu qazanırdı. Daş ustası kimi şagirdlikdən sonra Qrass 1948-56-cı illərdə heykəltəşlıq və qrafika üzrə təhsil alıb.

Bu müddət ərzində Qrass Ştutqart və Berlində ilk heykəltəraşlıq və qrafika sərgiləri ilə özünü heykəltəraş kimi təqdim etdi. 1957-59-cu illərdə Qrass həyat yoldaşı Anna ilə Parisdə yaşayırdı. O, bir müddət heykəltəraşlığı tərk etmiş, ancaq sonrakı illərdə yenidən təsviri sənətlə məşğul olmağa başlamışdır. O, həyatı boyu kitablarının üz qabığını özü tərtib edib və bir çoxunun illustrasiyası öz təxəyyülünün məhsuludur.

Günter Qrassın ilk evliliyi 1954-cü ildə İsveçrəli rəqqasə Anna Margareta Schwarz ilə olub. Onunla 1956-1959-cu illərdə Parisdə, daha sonra Berlində yaşayıb. Bu evlilikdən onun üç oğlu və bir qızı dünyaya gəlib. 1979-cu ildə Qrassın ikinci evliliyi orqan ifaçısı Ute Qrunert ilə oldu. 1995-ci ildə Günter Qrass onunla birlikdə Lübekə köçdü (Günter, 2012).

Günter Qrass “Dansiq trilogiyası” ilə özünü nəslinin aparıcı yazıçılarından kimi tanıtdı. “Tənəkə təbil” (1959), “Pişik və siçan” (1961), “İt illəri” (1963) romanları bu trilogiyanın əsasını təşkil edir. Bu əsərlər vasitəsilə o nəinki məharətli yazıçı kimi bacarığını nümayiş etdirdi, həm də özünün siyasi reputasiyasını yaratmış oldu.

“Tənəkə təbil” əsəri Günter Qrassın 1959-cu ildə yazdığı Dansiq trilogiyasının ilk kitabıdır. Hekayə 1952-1954-cu ildə ruhi xəstəxanada yatarkən özünün nəql etdiyi Oskar Matzerathın həyatı ətrafında cərəyan edir. 1924-cü ildə anadan olan Oskar 3 yaşından etibarən heç vaxt böyüməmək qərarına gəlir. O, II Dünya müharibəsinin başlanğıcını və II Dünya müharibəsini yaşayarkən uşaq kimi qalır. Oskar uşaq kimi mürəkkəb bir fiqurdur, lakin günahsız deyil, həssas və toxunulmaz, üç fut hündürlüyündə, yetkin beynə malik, intelektual cəhətdən inkişaf etmiş, ancaq əxlaqi cəhətdən zəif bir insandır. O, nağarasından bu hekayəni danışmaq üçün istifadə edir (Günter, 2016).

Əsər ictimaiyyətə təqdim olunduqdan sonra ilkin reaksiyalar çox qarışıq idi. Bəzi tənqidçilər onu küfr və pornoqrafik əsər adlandırırdılar. Hətta bu səbəbdən Günter Qrassa qarşı qanuni tədbirlər görüldü. Lakin bütün bunlara baxmayaraq əsər qısa müddətdə şöhrət qazandı və təxminən 20 il sonra məşhur rejissor Völker Şlöndörf tərəfindən eyniadlı süjet əsasında film çəkildi. O, ilk alman filmi kimi Oskar mükafatına layiq görülmüşdür. Bundan əlavə, bu filmə “Kann qızıl palma budağı” mükafatı da verilir.

“Pişik və siçan” əsəri 1961 ci ildə nəşr olunmuşdur. Hadisələri nəql edən Pilenz məktəb yoldaşı Mahkley və onların münasibəti haqqında dərindən düşünməyə başlayır. Birinci şəxsdən danışan Pilenz 1959-cu ildə Dansiqdəki müharibə illərini xatırlayır (Günter, 2022).

Avropa İkinci Dünya müharibəsinin qaranlığına qərq olduğu bir vaxtda bir qrup yeniyetmə Danziq limanında günlərini boş keçirirdi. Lakin müharibənin şiddəti genişləndikcə gənclərin taleyi tarixin bu dəhşətli dövrünün şərtləri ilə kəsişirdi. Pilenz Mahlke və başqalarını pişik vasitəsilə böyük Adəmin almasından xəbərdar etdiyinə və bununla da fəlakətli bir inkişafa səbəb olduğuna görə, Yoahim Mahlkenin hekayəsini danışmağa borclu olduğunu hiss edir. Müharibə başlayanda Yoahem Mahlke artıq 14 yaşına çatmışdı. Onun atası qatar sürücüsü idi və bir qəzada dünyasını dəyişmişdi. Ona anası və böyük bacısı baxırdı. Onlar Mahlkeni xəstə və zəif olduğu üçün məktəbə bir il gec göndərmişdilər. Eyni səbəbdən o gimnastika dərslərindən də azad edilib. Sonra o, sürətli şəkildə üzməyi öyrəndi və qrup yoldaşlarından bir il əvvəl minaaxtaran gəmiyə qoşuldu. Tezliklə o, təkcə ən sürətli üzgüçü deyil, həm də ən dözümlü dalğıc oldu. Digərləri günəşin altında yatıb dincəldiyi halda o, gəmidən müxtəlif əşyalar çıxartmağa çalışırdı. Onun tapdığı ən önəmli əşyalardan biri də gümüş Məryəm medalyonu idi. Onu öz boynuna asdı. Digər əşya isə suyun altındakı əşyaları açmaq üçün istifadə olunan tornavida idi. Bir müddət sonra Mahlke oğru kimi qələmə verildi, orta məktəbi bitirdikdən sonra hərbi təlim düşərgəsinə sənədləri göndərildi.

Hadisələri nəql edən Pilenzin qardaşı Klaus cəbhədə həlak oldu.Atası Yunanıstandan çöl poçtu vasitəsilə məktub göndərərkən, anası əxlaqsız həyatını yaşamağa davam edirdi. Yalnız bir neçə il sonra Plenz və Mahlke görüşdü. Bu dəfə Mahlke boynuna oğurlanmış xaç deyil, igidliyinə görə mükafatlandırılıdığı dəmir xaç taxmışdı. O zamanlar sualtı qayıq komandiri kimi Konrodinin auditoriyasında mühazirə oxumaq istəyirdi. Lakin baş müəllim ona əvvəlki davranışlarına görə icazə verməyəcəyini söylədi. Mahlke müəlliminin tələsinə düşərək ona sillə vurdu (Günter, 2015).

Səylərinə və müharibə qəhrəmanı kimi tanınmasına baxmayaraq o, cəmiyyətdə özünə mövqe qazana bilmirdi. Sonuncu dəfə o, məzuniyyətini çox uzatdı və cəbhədəki bölməsinə qayıtmamağa qərar verdi. O,batmış minaaxtaran gəmidə öz kabinəsində gizlənmək istəyirdi. Plenz onu ərzaqla

təmin etməyə çalışırdı. Ancaq Mahlke ancaq yetişməmiş qarğıdalı yeyirdi və bu onda ağır mədə sancılarına səbəb olurdu. Dağıntılar arasında itən Mahlkeni bir də heç kim görə bilmədi.

15 yaşında Hitler Gəncliyinə, 17 yaşında Nasist Ordusuna qoşulan və ya qoşulmağa məcbur olan Günter Qrassın keçmişinin kölgəsi həm romanın hekayəçisi Pilenzdə, həm də Mahlkedə təcəssüm tapır. Ədəbiyyat tarixinin ən unudulmaz metaforalarından biri olan cəmiyyət və fərd arasındakı pişik-siçan oyunu vasitəsilə müharibə zamanı insanların kim və nəyə çevrilməli olduğu sual altına alınır.

"İt illəri" əsərində yazıçı oxucularına İkinci dünya müharibəsindən əvvəl, müharibə zamanı və sonrasında alman mentalitetinin panoramik mənzərəsini təqdim edir. Danzig trilogiyasının üçüncü kitabı olan bu əsər, "Tənəkə təbil" və "Pişik və Siçan"dan sonra üç fərqli şəxs tərəfindən nəql edilən üç hissədən ibarət romandır. Romanın mərkəzində Danziq şəhərinin partiya rəhbərliyinin Hitlerə 42 illik yubileyi münasibətilə hədiyyə etdiyi alman çoban itinin hekayəsi dayanır (Günter, 2017).

Birinci rəvayətdə 1917-27-ci illərdə Vistula çayı ətrafındakı torpaq və insanlar təqdim olunur – Brauxelin xatirəsi. Burada əsas iştirakçılar təqdim olunur: müqəvva düzəldən yəhudi tacir oğlu Eddi Amsel və dəyirmançının oğlu Valter Matern. Brauxelin xatirələri vasitəsilə oxucu öyrənir ki, Eddinin atası özünü alman icmasına tam inteqrasiya etmiş varlı yəhudi tacir olub. O, kilsəyə gedirdi, xorda mahnı oxuyurdu və hətta Birinci Dünya müharibəsində Almaniya üçün döyüşdü və öldü. Bu inteqrasiyanı nəzərə alaraq, Brauxel Alfred Amselin yəhudi olub-olmadığını öz-özünə düşünməyə başlayır.

Romanın 1927-1945-ci illəri əhatə edən ikinci hissəsi Harri Liebenau'nun Tulla Pokriefkeyə yazdığı sevgi məktubları vasitəsilə təsvir edilir. Solğun qız olan Tulla hiyləgər, qəddar və amansız kimi təsvir edilmişdir. Onun vasitəsilə oxucu alman çoban iti Harrasla tanış olur, onun balası Prinz Hitlerin ad günü hədiyyəsi olur. Romanın bu hissəsində Grass, Nasist Partiyasının nüfuz qazanması ilə yəhudilərin getdikcə daha çox təqib edildiyini göstərir.

Romanın 1946-56-cı illəri əhatə edən üçüncü və son hissəsində Prinz hərbi əsir düşərgəsinə yollanır və burada bu son hissəni danışan Uolterlə rastlaşır. Sərbəst buraxıldıqdan sonra Uolter kommunistlərə rəğbəti olduğuna görə ona əzab verənlərin hamısından qisas almaq istəyir. Berlində onu keçmiş kalium mədəninə aparan Brauxel (Eddi) ilə tanış olur. Burada, yerin dərinliklərində Walter görür ki, Brauxel indi mexaniki canavarlara çevrilən müqəvvalar yaratmışdır. Bəşər timsalında yaradılmış bu canavarlar insanın hər bir duyğusunu, düşüncəsini, hərəkətini, o cümlədən hər bir arzu və deqradasiyanı ifadə edə bilir. İki kişi ayrılmağa hazırlaşanda Brauxel Prinz-i mühafizə etmək üçün mədənin girişinə bağlayır. Walter bu hərəkətə etiraz etmir, çünki Brauxel Prinzdə indi yeni ustadını tapdığını başa düşür (Heinrich, Günter, 2017).

Dansig trilogiyasının tamamlanması Qrass üçün bir qurtuluş idi.Artıq başqa mövzulara müraciət etməyin vaxtı çatmışdı. Yazıçı "Mənin yüzilliyim" əsərini yazmağa başlayanda Almaniyada siyasi qarışıqlıq hökm sürürdü və federal seçki kampaniyası zamanı idi. Adanauerin müxalifət namizədi William Brandta qarşı böhtan xarakterli bəyanatları artmağa başlamışdı. Bundan qəzəblənən Günter Qrass Brandt siyasi çıxışlar yazmaqda kömək etməyə başladı və bununla da uzunmüddətli əməkdaşlıq və dostluq münabətləri quruldu. 1961-ci ilin avqustunda Berlin divarı tikildikdən dərhal sonra o, Anna Seqersə açıq məktub yazaraq ondan zorakılığa qarşı etiraz etməsini xahiş etdi. O, cəmiyyəti sosializm və kommunizm xülyası ilə məharətlə gizlənən diktaturanın təsirindən qurtarmağa çalışırdı. O, Voldştrix Şnurre ilə birlikdə ADR Yazıçılar Assosiasiyasına da müraciət etdi.

Müharibədən sonrakı dövrdə artıq stimullaşdırılan SPD-nin siyasi məqsədləri onun marağına uyğun idi. 1960 cı illərdə getdikcə daha çox ictimaiyyət tərəfindən təmsil olunan partiya artıq mühüm öhdəliklər qazanmağa başladı. Qrass yalnız SPD-nin əhalinin böyük bir hissəsini ayağa qaldıra biləcəyinə inanıb ölkəsinə müraciət etdi. 1965-1973-cü illər arasında Brandt Almaniyada demokratik sosializmə ümidi gücləndirdiyi zaman, cari-siyasi vəzifələr ön plana çıxdı.

Qrass SPD-nin üzvü olmasa da, 1965-ci il seçki kampaniyasında Federativ Respublikanın bir çox şəhərlərində onlar üçün Siegfried Lenz, Paul Schalick və Hanz Werner ilə birlikdə kampaniyalar təşkil etmişdi. Onun yüzlərlə tədbirdə, açıq məktublarda, esselərdə, qəzet məqalələrində sənədləşdirilən ictiimai öhdəliyi bir alman yazıçısı üçün o dövrə qədər görünməmiş

hadisə idi. Qrass inanırdı ki, yazıçının yeri elə yaşadığı cəmiyyətin daxilindədir. Buna görə də geniş siyasi təsir göstərə bilmiş və demokratik xalq maarifinə mühüm töhfə vermişdir. Həmişə SPD-yə yaxın olan Qrass öz müstəqil siyasi mövqeyində mütərəqqi ideyalarını təmsil edirdi.

Xüsusilə 1960-cı illərdə bir alman yazıçısı üçün qeyri-adi siyasi öhdəliyi ilə Qrass Federativ Cümhuruyyətdə mühüm şəxsiyyətə çevrildi. 1967-ci ilin yanvarında Qrass Oder Neisse sərhədinin tanınmasını tələb etdi. Bu dövrdəki əsərlərinin çoxu ziyalıların məsuliyyətindən bəhs edir. 1960-cı illərdə Qrass, həmçinin Berlində fəal sol liberal ziyalıya çevrildi. O, 1969-cu ildə federal seçki zamanı yaşadıqlarını övladlarına həsr etdiyi "İlbizin Gündəliyindən" (1972) əsərində qeyd edib.

1972-ci ildən sonra Qrass bir neçə il siyasi ictimaiyyətdən uzaqlaşdı. Lakin şeir, rəsm və heykəltəraşlıq sərgiləri ilə öz şöhrətini qoruyub saxlayırdı.

1977-ci ildə çap olunmuş "Der Butt" ("Qalxanbalığı") romanı ilə yazıçı dünya ədəbiyyatında beynəlxalq nüfüz qazandı. Kitabın əsas mövzusu Qrimm qardaşlarının "Balıqçı və arvadı" nağılına əsaslanır və cinslərin mübarizəsindən danışılır. Əsər anti-feminist roman kimi oxunub və romandakı sehrli balıq kişi patriarxatını və zəfəri təmsil edir.

Bunun ardınca 1980-ci ildə "Başlar və ya almanlar ölür" adlı mübahisəli kitabı çapdan çıxdı. Sonrakı illərdə yazıçı litoqrafiya və heykəltəraşlıqla daha çox məşğul oldu. 1986-cı ildə onun ətraf mühitin qorunması və sülh hərəkatını dəstəklədiyinin təsdiqi olan nəsr əsəri "Die Rattin" (Siçovul") əsəri çap olundu.

Onun kitabları 1980-ci ilə qədər ADR-də qadağan edilmişdi. Qrass yalnız 1982-ci ildə sosial-libersal koalisiyanın dağılmasından sonra SPD-nin üzvü oldu. On il sonra həmin partiya qondarma sığınacaq kompromisini təsdiqlədiyi üçün Qrass ayrılmalı olur. Etiraz olaraq bir partiyanı tərk etmək Qrass üçün yeni deyildi. Yazıçı həm də abort məsələsində yepiskoplarını sərt mövqeyinə görə 1974-cü ildə Katolik kilsəsindən ayrılmışdı.

2002-ci ildə yazdığı "İm Krebsgang" ("Yengəç gəzintisi") əsəri ilə yazıçı dünya ədəbiyyatının ön sıralarına qayıtdı. "İm Krebsgang" əsərinin əsas mövzusu 1945-ci ildə Baltik dənizində əsasən, qadın və uşaq olmaqla 9000-ə yaxın alman qaçqının siyasi Vilhelm Gustloff adlı Rusiya sualtı qayığında batmasıdır. Bu fəlakət Titanikin batmasından 4 dəfə daha çox insan həyatına bais olur, lakin müharibədən sonra ictimaiyyətdə az xatırlandı (Totes, 1990).

Bu əsər çox cəsarətli kitabdır. Silah gücü ilə Polşa və Çexoslavakiyada köklü alman icmalarını tərk etmək məcburiyyətində qalan milyonlarca alman mülki vətəndaşı bu gəmiyə doldurulmuşdu. Bu hadisə İkinci Dünya müharibəsinin unudulmuş bəlasına çevrilmişdi. Gustlov haqqında film 50-ci illərdə ortaya çıxdı, ancaq tezliklə unuduldu. Qrassın arqumenti ondan ibarət idi ki, bütün almanlar xüsusən liberal solçular alman tarixində baş verən hadisələrə daha həssas və diqqətlə yanaşmalıdılar.

Qəribədir, Brandtın 70-ci illərin əvvəllərində Polşa, Çexoslavakiya ilə imzaladığı müqavilələrdən sonra bu hadisə tamamən unuduldu. Dövlətlərarasə münasibətlər nə qədər yaxşılaşsa da, Şərqi Avropada almanların başına gələnləri müzakirə etmək bir o qədər çətinləşdi.

Əsərin adından da göründüyü kimi, yazıçı məsələlərə birbaşa yanaşmır. Povestin əsas mövzu və ideyası gəminin batması deyil. Əsərdə hadisələr 3 nəslin fonunda inkişaf etdirilir. "Nəticə" hissəsində anası faciədən sağ çıxan 50 yaşlı jurnalistin gəmidə eyni fəlakəti yaşayıb sağ qalanlardan çox gec olmadan müsahibə almaq üçün tələsməsidir.

Bu əsər Qrassın müharibə mövzusunda ilk əsəri deyildi. Sadəcə olaraq, yazıçı tarixi amneziya məsələsinə özündən əvvəlki yazıçılardan fərqli olaraq, daha ciddi və sərt yanaşırdı. Qrass iddia edirdi ki, faşist dövrünü məktəblərdə və alman mediasında düzgün tədris etmirlər (Volker, 1987).

1982-ci ildə Borndakı sosial-liberal koalisiyanın dağılmasından sonra Qrass SPD-nin üzvü oldu və getdikcə daha çox sülh hərəkatında iştirak etməyə başladı. O, yazıçıların, sənətçilərin və alimlərin 1983-cü ildə Federativ Respublikada "Perşinq-2" raketlərinin yerləşdirilməsinə görə insanları hərbi xidmətdən imtina etməyə çağırdığı "Heilbronn manifestini" imzaladı. 1987-ci ildə Şlerviq Holşteyn ştatında keçirilən seçkilərdə SPD-nin əsas namizədi Bjorn Engdomu açıq şəkildə dəstəklədi.

1990-cu ildə yenidən birləşmə aktual mövzuya çevrildikdə, Qrass yenidən siyasi xəbərdarlıq rolunu öz üzərinə götürdü. Onilliklər ərzində almanlar yenidən birləşməyə söz vermişdilər. Ancaq yenə də bunun baş verəcəyinə heç vaxt inanmırdılar.

İslahatçı Sovet lideri Mixail Qorbaçov yeniliklərə yaşıl işıq yandıranda və Şərqi Almaniya hakimiyyəti minlərlə küçə etirazçısının təzyiqi altında Berlin divarını yıxanda insanlar birliyə səs vermək fürsətindən istifadə etdilər. Lakin Qrass buna qarşı çıxdı və bunun əvəzinə tədricən birlikdə böyüyəcək Federalist alman millətini müdafiə etdi. Onun 1992-ci ildə yazdığı "Qiyamət peyğəmbərləri" əsəri də bu məsələri də əks etdirir. 1993 cü ildə Qrass sosial demokratların sığınacaq siyasətinə etiraz olaraq SPD-dən istefa verdi (Volker, 1987).

90-cı illərə qədər Qrass çox məşhur idi. O, bir simvola çevrilmişdi və həmişə də öz əqidəsinə kifayət qədər əmin idi. Həmin dövrdə öz mövqeyini əsaslandırmaq üçün "Geniş tarla" romanını yazdı. Hekayə daha çox Şərqi Almaniya problemlərini ümumiləşdirir. Əsəron əsas personajları Fontan və Hoftallerdir. Süjetin başlanğıc nöqtəsi və mərkəzi Berlindir. Roman 5 hissəyə bölünür. Hər hissə də başlıqlarla 5 fəsildən ibarətdir. "Divar ağacdələnlərində" adlı birinci fəsildən sonra "Biraz şanslı"ya qədər romanın beş hissəsində 37 fəsil var. Əsas məkan Berlin olmasına baxmayaraq, bəzən Potsdam, Neuri, bəzən Hiddensee və Lutasiyadakı kömür mədənlərində baş vermiş hadisələri də əks edilir. Bu əsər ümumilikdə, Qrassın Almaniya ilə bağlı düşüncələrinin, təhlillərinin məcmusudur. Əsər həm tarixi, həm də müasir romandır. Tarixin təkrarlanması ideyası Grassın əsas gizli mesajıdır. Onun alman birliyinə şübhəsi qismən Şərqi almanlara xam müqavilənin verildiyini hiss etməsindən irəli gəlirdi. Qrassın Şərqi Almaniya rejiminə simpatiyası yox idi. Birləşmədən əvvəlki illərdə o, yazıçılarla görüşmək üçün mütəmadi olaraq Şərqi Almaniyaya səfər edirdi.

Qrassın anti-imperializmi tez-tez ABŞ-a, Vyetnama, daha sonra isə Mərkəzi Amerikaya yönəldi. O, 1982-ci ildə Reyqan administrasiyası tərəfindən silahlanmış və maliyyələşdirilmiş üsyançılar Sardinista hökumətini devirməyə çalışarkən Nikaraquaya səfər etmişdi.

2012-ci ildə o, İsraili İranı bombalamaqda günahlandırdırıb bunu bütün dünyada sülh üçün təhlükə hesab edirdi. "Söylənməlidir" adlı şeirini də bu mövzuya həsr edib. Şeirdə həmçinin Almaniya hökümətinin İsrailə nüvə silahları daşıyan sualtı qayıqları satdığı üçün müharibə cinayətlərinə şərik olduğu fikri də səsləndirilir. İsrail höküməti ona həmin ölkəyə giriş qadağası qoyur. Qrass bunu Myama və Şərqi Almaniya hökümətlərinin ona qarşı münasibəti ilə eyni dəyərləndirirdi.

Onun nüfuzu Kommunist hakimiyyəti orqanlarının ona qadağa qoymasını çətinləşdiridi. O, Polşa-Almaniya münasibətlərindəki gərginliyi aradan qaldırmaq üçün Polşaya səfər edən İlk Qərbi Almanlardan idi (Willy, Günter, 2013).

Lakin 1990-cı ildən sonra Qərbi Almanların Şərqi Almaniya rejimi ilə, o cümlədən məktəb müəllimlərinin və universitet professorlarının nasistlərlə müqayisədə daha amansız olduğunu düşünürdü. Qərbi Almaniyanın bütün nöqsanlarını Şərqi Almaniyanın üzərinə qoyulması onu həmişə narahat edirdi.

Qrass beynəlxalq borcların aradan qaldırılmasından tutmuş ətraf mühitin çirklənməsinə qədər də bir çox qlobal problemlərin həllində də öz mövqeyini nümayiş etdirmişdi. O, 2003- cü ildə ABŞ-ın İraqa qarşı apardığı müharibəyə kampaniyaya qoşuldu.

12 avqust 2006-cı ildə "Soğanın qabığını soymaq" adlı bioqrafik əsərinin nəşrindən bir müddət əvvəl Qrass FAZ-a müsahibəsində ilk dəfə 17 yaşında Waffen SS-ə çağırılıdığını açıq şəkildə etiraf etdi. O, 1944 cü ildə "Frundsberg" diviziyasında tank atıcısı kimi xidmətə başladığını, ancaq hərbi cinayətlərdə iştirak etmədiyini qeyd edir. Bu gec etiraf Qrassın dürüstlüyü və etibarlılığı üçün təhlükə idi. Almaniyada və beynəlxalq miqyasda qızğın emosional mübahisələr başlandı. Bu arada "Soğanın qabığını soymaq" bestseller siyahısına yüksəldi. Ədəbiyyatşünaslar isə kitabın özü ilə bağlı fikir ayrılığına düşmüşdülər.

1999-cu il 30 sentyabrda İsveç Akademiyasının katibi Horace Engdahi Günter Qrassın Nobel mükafatına layiq görüldüyünü elan etdi. Nobel mükafatından başqa Qrass uzunmüddətli yaradıcılığı dönəmində saysız-hesabsız mükafatlar, o cümlədən "Alman tənqidçiləri" (1960), "Georg Büxner" (1965), "Fontan və Tomas Mann" mükafatı aldı. 1999 cu ildə Qrass İspaniyanın "Avstriya

şahzadəsi" mükafatını aldı. O həmçinin Harvard Universiteti, Polşanın Poznan şəhərindəki Adam Mikiquecz Universiteti və Berlin Azad Universitetindən fəxri doktorluq dərəcəsi alıb.

Grass Heinrich Böll və Siegfried Lenz ilə birlikdə 1979-cu ildə Federal Xidmət xaçından imtina etdi. Bir astreoidə Qrassın adı verildi. 1993-cü ildə isə fəxri vətəndaşlıq və Qdansk Universitetinin fəxri doktoru adını aldı.

Qrass 87 yaşında ağciyər infeksiyasından 13 aprel 2015-ci ildə Lübekdə xəstəxanada dünyasını dəyişir. O , 1995-ci ildən yaşadığı Lübekdən 15 mil cənubda, aprelin 29-da Behlendorfda xüsusi ailə mərasimində dəfn edilib.

Amerikalı yazıçı Con İrvinq mayın 10-da Lübek Teatrında Grassın anım mərasimində əsas mədhiyyəni söylədi. İştirak edənlər arasında Almaniya prezidenti Yoahim Qauk, keçmiş kansler Gerhard Şröder, federal mədəniyyət komissarı Monika Qrütters, kinorejissor Volker Şlöndorf və Qdansk şəhərinin meri Pavel Adamoviç də var idi.

## Nəticə

Günter Qrass yalnız Alman ədəbiyyatının deyil, həmçinin dünya ədəbiyyatının nadir incisi idi. Onun yaradıcılığı heç bir zaman tarixin kölgəsində qala bilməz. Əsərlərində müraciət etdiyi mövzular bütün dövrlər üçün aktual mövzudur. Deyərdim ki, dünya ədəbiyyatında Qrass qədər insanın daxili aləminə nüfuz etmiş yazıçılar çoxluq təşkil etmir. Onun həm bədii, həm də siyasi fəaliyyəti insanların özünü düzgün dərk etməsinə və doğru yolda getməsinə istiqamət verirdi. Yazıçı həmçinin tarixi hadisələrin və proseslərin mahiyyətini açmaqla da insanların oyanmasına çalışırdı. Qrassın əsərləri tərəqqiyə aparan, insanın özünü dərindən dərk etməsinə sövq edən ideyalarla zəngindir. Bu ideyalar nəinki XX əsr oxucularının, həmçinin bütün dövrlərdə yaşayan insanlar üçün mənəvi psixoloji amilə çevrilə bilər.

## Ədəbiyyat

1. Günter, G. (2002). *İm Krabsgang*. Hamburg.
2. Günter, G. (2010). *Der Butt, gelesen von Günter Qrass*. Göttingen.
3. Günter, G. (2010). *Qrimms Wörter*. Göttingen.
4. Günter, G. (2011). *Beim hauten der Zwiebel*. Göttingen.
5. Günter, G. (2012). *Eintagsfliegen*. Göttingen.
6. Günter, G. (2016). *Gesprache 1958-2015*. Göttingen.
7. Günter, G. (2022). *Figurenstehen*. Göttingen.
8. Günter, Q. (2015). *Vonne Endlichkait*. Göttingen.
9. Günter, Q. (2017). *Grimms Wörter* Göttingen.
10. Heinrich, D., & Günter, G. (2017). *Ein Sprach im Herbst*. Göttingen.
11. Totes, H. (1990). *Ein Nachruf*. Göttingen.
12. Volker, N. (1987). *Werke in zehn banden*. Darmstadt.
13. Willy, B., & Günter, G. (2013). *Der Briefwechsel*. Göttingen.

Daxil oldu: 04.09.2024
Baxışa göndərildi: 22.10.2024
Təsdiq edildi: 08.11.2024
Çap olundu: 30.11.2024